**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mərkəzi aparatının ştat sayının artırılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli, 270 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mərkəzi aparatının ştat sayı 22 vahid artırılmaqla cəmi 77 vahid müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, ayrılmış ştat vahidləri dairəsində nazirliyin mərkəzi aparatının strukturunu təsdiq etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə**

**Bakı şəhəri, 20 iyul 2000-ci il**

**№ 128**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3056.**